# Dahi sənətkar... Qəribə insan...



**Çarli Çaplin 16 aprel 1889-cu ildə Londonda musiqiçi Çarlz Çaplin, rəqqasə və müğənni Hanna Çaplinin övladı kimi dünyaya gəlmişdi. Atası onları atanda Çarlinin cəmi 1 yaşı vardı. Çarlz ailəsini yada salmır, küçələrdə sərgərdan həyat keçirir, bütün günü içib sərxoş olurdu. O, 1901-ci ildə alkoqoldan vəfat etdi.**

### Onun həyatı bir əfsanəni xatırladır

Anası Hannanın isə hələ uşaqlıqdan psixi problemləri vardı. Ailəsinin dağılması və çətin həyat tərzi qadının əsəblərinə pis təsir edir. O, əvvəlcə səsini itirir. Son dəfə səhnədə ikən səsi birdən-birə batır və bu vəziyyətdə uşaqlıqdan anasından oxuyub-oynamaq öyrənən 12 yaşlı Çarli səhnəyə çıxaraq çıxış etməyə başlayır. Çarlinin ilk səhnə çıxışı tamaşaçılarda dərin gülüş yaradır və baş verən faciə tamamilə unudulur.

Anası xəstəxanaya düşdüyündən Çarli internatda böyüməli olur.

O öz karyerasına 5 yaşında başlayır. İngilis teatrlarından birində küçə uşağı rolunu uğurla oynayırdı.

1913-cü ildə Çaplin ABŞ-a səfəri zamanı Keystoun film studiyasında film çəkilişində iştirak edir. Əvvəllər kiçik rollarda çəkilən Çarli bir gün sənət dostlarından bir cüt ayaqqabı, iri bir şalvar, dar bir pencək, şlyapa və yalançı bığ alır. Bu stil onun rollarına uyğun gəlməsə də, sonra studiyada bu paltarda çəkilməsinə icazə verirlər. Məşhur yerişi isə aktyor sonralar öyrənir.

O, rejissorlara yorulmadan məsləhətlər verir, onların baş-beynini aparırdı. Ancaq rejissorlar onu eşitmək istəmir, bu balaca, qeyri-adi insanın söylədiklərini ciddi qəbul etmirdilər. Odur ki, Çaplin ideyalarını gerçəkləşdirmək üçün filmlərə özü rejissorluq etməyə başlayır. Filmlərinin ssenarisini isə demək olar ki, yazmırdı. Sadəcə kamera qarşısına keçib oynayırdı...

1915-16-ci illərdə o yüksək qonorarla Essanaye və Mutual korporeyşnə işləməyə gedir. Burada Çarli Çaplin ilk qadını Edna Pervins ilə tanış olur. Edna onun 35 filmində çəkilir.

Ümumiyyətlə, Çaplin filmlərində iştirak edən bütün qadınlara vurulurdu və çox zaman öz hisslərini dilə gətirməkdən çəkinmirdi. Qadınlar da bu balaca, məşhur və varlı adama laqeyd deyildilər. Ancaq onun var-dövlətindən yararlanmaq üçün ailə qurmaq lazım idi. Çarlini isə buna razı salmaq elə də asan deyildi.

### İlk izdivac və daha sonra...

Ç.Çaplinin doğumu da, uşaqlığı, gəncliyi və qocalığı da, ölümü və dəfni də qəribə bir əfsanəni xatırladır. Aktyorun eşq macəraları isə bu qərubə əfsanənin ən maraqlı səhifələrindəndir.

"Mən qadınlarla darıxanda məşğul oluram" - söyləsə də Çaplin 4 dəfə evlənmişdi. Onun 11 uşağı vardı. Məşuqələrinin isə sayı-hesabı yox idi.

İlk qadını olan Edna Pervins o qədər utancaq və sadəlövh idi ki, Çaplin ilə münasibətdə həmişə uduzur, onu dəhşətli dərəcədə qısqanırdı.

Az keçməmiş 16 yaşlı balerina Mildred Xarris Ednanı əvəz etməyə başladı. Yeniyetmə olsa da Mildred varlı və məşhur aktyora ərə getməyin yolunu asanlıqla tapa bilir; hamilə qalmaqla Çaplini ilişdirir. O zaman Amerikada mövcud qanunvericiliyə görə azyaşlıları yoldan çıxarana 30 il həbs cəzası verilirdi. Qəribəsi isə bu idi ki, Mildredin hamiləliyi yalançı idi. Ancaq o, bir ildən sonra ustalıqla aldatdığı Çaplinə bir uşaq hədiyyə edir. Üçgünlük uşaqları tələf olanda cütlük bir-birinə nifrət bəsləməyə başlayır və bu ailənin dağılmasıilə nəticələndi.

Çarli Lita Qreyə rast gələndə qızın 6 yaşı vardı. Neçə illər onu gözdən qoymayan Çarli "Balaca" filmində mələk rolunun ifaçısı 12 yaşlı Lita Qreyə atalıq etməyə başlayır. Ancaq atanın şorgözlüyü 15 yaşının tamamında Lita ilə evlənməyə gətirib çıxarır. Çünki qız hamilə idi. Lita da Çarlinin əvvəlki qadını Mildredin məşhur ssenarisi ilə ona ərə gedir.

Bu izdivacdan 2 uşaq gəlir dünyaya. Ancaq ailə mehriban yaşaya bilmir. Çarli öz qadınına qarşı çox əzazil davranmağa başlayır. Nəhayət, Lita 42 səhifəlik boşanma ərizəsi yazmalı olur. Ərizənin surətini küçədə ucuz qiymətə satmağa başlayırlar. Burda Lita Çaplinlə intim həyatlarının bəzi məqamlarını açıqlayırdı. Sən demə 2 ildə onun 5 məşuqəsi varmış, tapança ilə arvadını hədələyrmiş. Və yazılması mümkün olmayan daha nələr, nələr...

Boşanmadan sonra Çaplin əsəb xəstəxanasına düşür. Klinikadan çıxanda başında bir dənə də qara tük yox imiş.

Məlumat üçün bildirək ki, Çarli və Lita Qrey Nabokovun "Lolita" romanının və eyni adlı filmin prototipləridir.

Aktyor həbs olunmamaq üçün 1 milyon 125 min dollar aliment, 1 milyonluq məhkəmə xərci ödəməli olur. Ancaq qalmaqal axtaran jurnalistlərin qələmindən qurtula bilmir.

1943-cü ildə Çaplinə məşhur dramaturqlardan birinin qızı Una Onili təklif edirlər. Aktyor bioqrafiyasında yazır ki, "onun 17 yaşı olduğunu eşidəndə ürəyim düşdü". Axı, onların 36 il yaş fərqi vardı.

Dahi komikin qocalığı bu xoşxasiyyət qadınla çox rahat şəraitdə keçir. Onların 3 oğlu, 5 qızı dünyaya gəlir. Gümüş toylarına cəmi bir il qalmış sonuncu övladını görəndə Çaplinin 90-a yaxın yaşı vardı.

### Allahın bəlası

Çaplin "First National"da ilk milyon dollar məbləğində müqavilə imzalayan ulduz olub. 1921-ci ildə Çaplin ilk uzun məzmunlu filmi olan "Uşaq"ı çəkir (51 dəqiqə).

Çaplinin "First National" studiyasında müqaviləsi başa çatdıqda sonra o, həmkarları ilə birlikdə "United Artists" film studiyasını yaradır.

1936-cı ildə Çaplinin "Müasir zəmanə" adlı filmi işıq üzü görür. Bu film Amerikada ciddi tənqidlərə məruz qalır. O, sistem və kapitalizm əleyhinə film kimi pislənir.

1950-ci ildə Çarli Çaplin "Böyük diktator" filmini ekranlaşdırır. Əslində Hitlerin hakimiyyətini pisləyən bu film ilk öncə Amerika senzurasından keçmir, çünki Hitlerin fəaliyyətinin əvvəlində amerika konservatorları onun Avropada "bolşevizmə" və "kommunizmə" qarşı hərbi güc toplamasını alqışlayırdılar. Onlar Hitleri böyük siyasətçi adlandırırdılar. Ona görə də, Çaplinin bu filmi onların ürəyincə deyildi.

Bu filmdən sonra nasional sosialistlər ona yəhudi damğası vururlar. Daha sonra isə Çarlini kommunist adlandırmağa başlayırlar. Onun çıxışlarının birinə "yoldaşlar" müraciəti ilə başlaması düşmənlərini daha da hiddətləndirir. Çarli isə heç kəsi və heç nəyi vecinə almır. Hətta adını nasizm əleyhinə yaradılan silahlı dəstəyə yazdırır.

Müharibədən sonrakı illərdə o tez-tez dövlət məmurlarına qarşı sorğu-suala tutulur. FBİ-nin şefi Edqar Huver Çaplinin əleyhidarlarından biri idi, o Çaplini Amerikada yaşamaq hüququndan məhrum etmək istəyirdi.

Elə həmin zamanlarda birdən-birə Çaplin ingilis həftəlik qəzetində "Mən Hollivuda müharibə elan edirəm!" adlı məqaləsini çap etdirir. O, böyük nailiyyətlərinə Amerikada çatmasına baxmayaraq öz Britaniya vətəndaşlağını saxlayır və özünü dünya vətəndaşı adlandırır. Çarli Çaplin liberal, kritik və pasifist siyasi cərəyanlara qulluq edirdi. Ona görə də, film ulduzu kimi bəzi problemləri yaranırdı.

18 sentyabr 1952-ci ildə Çarli Çaplin ABŞ-ı tərk edərərk İgiltərəyə qısa səfərə çıxır. Məqsədi təzə çəkdiyi filmi nümayiş etdirmək idi. Huver bundan xəbər tutan kimi Çarli Çaplinin Amerikaya qayıdışının qarşısını alır. Çaplin Avropada qalmaq qərarına gəlir. 1952-ci ildə o İsveçrəyə köçür və Cenevrə gölü ətrafında Manoir de Banda yaşamağa başlayır.

1957-ci ildə Çaplin ABŞ ilə arasında olan problemləri satirik şəkildə çəkdiyi "Nyu-Yorkda bir şah" filmində ifşa edir.

On il sonra Çaplin "Honkong Qrafı" adlı filmini çəkir. Bu filmdə o ikinci rolda çıxış edir. Çəkiliş zamanı onun sağlamlığında tez-tez problemlər üzə çıxır. Onun səhhəti son illər keçirdiyi stresslər nəticəsində xeyli pisləşmişdi.

1972-ci ildə o "Fəxri oskar" mükafatını almaq üçün bir dəfə də Amerikaya dəvət edilir.

Siyasi görüşlərinə görə onu daim təqib altında saxlayan ABŞ dahi sənətkarın sənəti qarşısında yenə baş əyməli olur.

Çarli Çaplin 25 dekabr 1977-ci ildə 88 yaşında Veve (İsveçrə) şəhərində vəfat edir və öz vəsiyyəti ilə heç bir ölkənin ərazisinə aid olmayan neytral bir ərazidə dəfn olunur.

**● Ş.AĞAYAR**